Sonu olmaz yalan dolu mədhlərin,
Səmimilik canı olsun cəhdlərin,
Sevgilərin, sevdaların, əhdlərin,
Peymanların bünövrəsi olmalı.

Ey dost, çıxar gözlərindən gözlüyü,
Bir üzlülər üzə taxmaz üzlüyü,
İnsanların insanlığı, düzlüyü,
Heyvanların şəcərəsi olmalı.

Al günəşdir insanlığın gözəli,
Gəzib dolaş oymaq-oymaq yüz eli,
Hər yurddaşın ürəyində öz eli,
Xəyalında yer kürəsi olmalı.

Hər adamla oturulmaz, durulmaz,
Hər məclisə, hər görüşə varılmaz.
Mənim könlüm dostlarımdan darılmaz,
Arxadaşlıq gözgörəsi olmalı.

Çoban yaşar çobanların içində,
Ozan coşar ozanların içində,
Rəfiq Zəka, insanların içində
Hər insanın öz çevrəsi olmalı.

1985

TANRI TÜRKÜ QORUSUN

SƏRHƏDLƏRİMİZ

Canla, başla qorudu yurdumuzu cədlərimiz,
Ayla, yıldızla ucaldı ulu məbədlərimiz,
Bəncə, şimşək kimi yüksəklərə yol açmaq üçün
Öncə bağlanmalı alçaqlara sərhədlərimiz!..

1989

BİR SANİYƏDƏN SONRA

Tanrım quruyan gözlərimə yaş verəcəkdir,
Yurddaşlarıma bir Ata türkdaş verəcəkdir!..
Yox söyləmə, varlıqda bir insan bilə bilməz
Bir saniyədən sonra nələr baş verəcəkdir!..

1977

SÖNƏN DEYİLDİR

Kim deyir, bir sabah sönər bu dünya,
Günəş sönməyincə sönən deyildir!
Gecəli gündüzlü dönər bu dünya,
Dönsə də, yolundan dönən deyildir.

1981

ANA YURDUM, AMAN OY!..

Dostum Vasim Məmmədəliyə

Adımızı qonaqsevər qoydular,
Xalqımızın saflığını duydular
Yurdumuzu taladılar, soydular,
Halımızı eylədilər yaman, oy!

Gülüstanda çalağanlar göründü,
Azərbaycan iki yerə bölündü,
Dağlarımız tüstülərə büründü,
Üstümüzü aldı qara duman, oy!

Bir gün bizə güldü ömür novrağı,
Bayram etdik ay-ulduzlu bayrağı,
Günəşləndi Azərbaycan torpağı,
Güldü dəniz, zirvə, dərə, orman, oy!

İkicə il atdı ömür damımız,
İkicə il rahat oldu canımız,
Sonra axdı su yerinə qanımız,
Ürəyimiz oldu qırığ kaman, oy!

Oylaqları yıxıb viran etdilər,
Yaylaqları yaxıb aran etdilər,
Yurdumuzu güllələbaran etdilər,
Yaralandı şəhər, dəniz, liman, oy!

Düşündük ki, bu nə kabus, bu nə sir?
Torpaq əsir, vətən əsir, xalq əsir,
O vəhşəti çəkmiş idik bir əsr,
Yenə gəldi o dəhşətli zaman, oy!

O gerçəkdən qorxunc olan nağıl yox,
Yurdumuzda dəlinməyən çağıl yox,
Başçıların başlarında ağıl yox,
Haman dərddir, haman dərddir, haman, oy!

Qurşunlanır könüllərdə ümidlər,
Susdurulur qurd ürəkli igidlər,
Şəhidlərin üzərindən şəhidlər,
Alçaqlara yabançıdır iman, oy!

Bolşeviklər daşnaklara qatıldı,
Bazar oldu satılanlar satıldı,
Ərdəmlilər zindanlara atıldı,
Bulunmadı dərdimizə dərman, oy!

Divan oldu, dağıdıldı ordumuz,
Tülkülərlə çevrələndi qurdumuz,
Qara geydi qara baxtlı yurdumuz,
Aman yoxdur bugün bizə aman, oy!..

Ankara, 1990

MAVİ XƏZƏR

Xəzər, ey mavi Xəzər!
Suların dalğalanan türküyə bənzər!

Çağlayan dalğaların
Bitməyən qovğaların!

Sənə oxşar, səni oxşar əsərim olsaydı,
O gözəl duyğularınla ürəyim dolsaydı!

Nə qədər mutlu olardım, bilsən,
Eşi yox şairsən!

Ah, nələr var səndə,
Əbədi saniyələr var səndə.

Yer üzündə əbədidir cəngin,
Uludur ahəngin.

Sonu yox dadlı gözəlliklərinin,
Sirləri səndə yüzilliklərinin!

Mavi bir güzgüyə bənzər kimisən,
Yerə enmiş göyə bənzər kimisən.

Günəşi ruhuna uydurmadasan,
Mənə sonsuzluğu duydurmadasan.

Səni candan dinlər
Gözləri yolda qalan bədbinlər.

Səndə bir məna var,
Dadlı bir röya var.

İmrənirsən niyə yıldızla Aya,
Başqa bir dünyaya.

Ucal, ey mavi Xəzər,
Suların maviləşən türküyə bənzər!

Sən ucaldıqca ucalmaqda bizim türklər də,
Mat qalıbdır bu dərin hikmətə müdriklər də!

Ucal, ey Türk dənizi, sirli dəniz!
Türklüyün aynası bildik səni biz!

Ulu türkdaşlarına sirrini aç! Nurunu saç!
Mavi türkünlə dənizdən-dənizə mavi yol aç!..

GÜLLƏR

Gül bağçasi görcək nədən insan arasın da,
Bitmiş o tikanlar niyə güllər sırasında?
Daldıqca açan güllərə könlüm açılır ki,
Güllər açılıbdır o tikanlar arasında!..

1972

SANMA

Türkülərlə ucalır
Mənim Odlar yurdum.

Yağılar silkələdi,
Qayalartək durdum.

Oxu tarixləri, gör
Neçə dövlət qurdum.

Baş ucumda dayanıb
Totemim-bozqurdum.

Düşməni bayrağımın
Süngüsüylə vurdum.

Müstəbidlər nə bilir
Nə büsatlar qurdum.

Qara bayquşları mən
Öz əlimlə burdum.

Qeyrətimdir sipərim,
Ulusumdur ordum!

1985

İMZA

Türkülərlə söylərəm gerçəkdəki röyamı mən,
Duyğularla eylərəm dastan könül dünyamı mən,
Bircə beytimdən bilər yurdumda yurddaşlar məni.
Qoymasam da şerimin altında öz imzamı mən.

NEYLƏR

Quzğunlar sürüsü dağları yıxmaz,
Çirkablar çırpınan odlara neylər?!

Bir ulus önünə bir tayfa çıxmaz,
Tülkülər alayı qurdlara neylər?!

1981

NƏ UMAR

Olarmı ulussuz yurd yer üzündə?
O bir boş sahədir çölün düzündə!
Nə umar ərənlər yurdsuz ulusdan?
Bir nəhəng dibçəkdə bitən gülüstan!

1977

GÜZGÜLƏR

Güzgülər, güzgülər, əski güzgülər,
Nə göz şəfəqlənər, nə də üz gülər,
Nədir üzümdəki dərin cizgilər,
Neçin mənə baxar sizdən özgələr?

1987

YOX

Rəvamı bu dərdə tutulsun ürək?
Səndə insaf da yox, mürüvvət də yox!
Səndəki ildırım, səndəki şimşək,
Səndəki qasırğa təbiətdə yox!

1975

BİZ

Anadan olmaya bilərdik biz,
Nə yaşardıq, nə də ölərdik biz,
Anadan olmuşuqsa ölməliyik,
Torpağa üz tutub gömülməliyik.

1982

ŞEİRDƏ HÜNƏR

Şairin hisləri nura bürünər,
Hər şeir bir bağlı qönçə deməkdir.
Ustadlar bilir ki, şeirdə hünər
Nə demək deyildir, necə deməkdir.

1961

BU ÜZDƏN

Ay kimi gülsən də qaranlıqlara,
Qaşın, saçın qara, gözün qaradır,
Mənimsə günümü etmisən qara,
Bu üzdən yanımda üzün qaradır.

1964

UCALAR

Bayquş xarabada ular,
Quzğun leşə meyil salar.
Qartal göydə qanad çalar,
Bülbül gülüstanda qalar,
Ceyran düzdən ilham alar,
Qurd ucalıqlara dalar,
İnsan eliylə ucalar.

1963

DİRİLƏR, ÖLÜLƏR

Nə yaşam zövqünü anlar, nə ölüm dərdi bilər,
Kim görünməzsə məzarlıqda bu varlıqda, oğul!
Yoxluğun sirrini anlar ölülərdən dirilər,
Dirilər də ölüdür sanki məzarlıqda, oğul!

1984

GÜLÜSTANLAR

Ayıran çoxmudur arifləri nadanlardan?
Uzaq olmaq dilərəm maskalı insanlardan,
Çıxarın nəğməli bülbülləri zindanlardan,
Oxşasın türkləri bir türkü gülüstanlardan!

1981

EDƏRSƏN

Sən məni könüldən, candan edərsən,
Dünyanı başıma zindan edərsən!
Sənin həsrətinlə ağlayır Rəfiq,
Zəkanı nə zaman xəndan edərsən?!

1966

QIRILMAZ

Sazın çağlayışı könül telləri,
Onu alqışlayan əllər qırılmaz,

Yurd, ulus söyləyir sazın telləri,
Yurd, ulus söyləyən tellər qırılmaz.

1964

ÜZÜNTÜ

Nə qədər canlıydı o səmavi tül,
Duydum o şəfəqli üzün tülüymüş.
Nə qədər ağlasın çağlayan könül,
Ayrılıq o qədər üzüntülüymüş.

1982

AHƏNG

Varlıqda hər şeyin öz ahəngi var,
Nəğmə ahəngi var, söz ahəngi var.

Rəssamın ahəngi rəngidir onun,
Fırçası əlində cəngidir onun.

Ahəngi daşdandır heykəltəraşın,
Ahəngli çizgidir rəngi nəqqaşın.

Şairin ahəngi rübabındadır,
İncə duyğularla xitabındadır.

Yamaclar, ormanlar ahəngə bağlı,
İrmaqlar, ümmanlar ahəngə bağlı.

Dağların ahəngi bulaqlardadır,
Bağların ahəngi budaqlardadır.

Quşların ahəngi güllərə bağlı,
Daşların ahəngi sellərə bağlı.

Bütün canlıların ahəngi vardır,
Həyəcanlıların ahəngi vardır.

Günəşin ahəngi nur çələnglidir,
Ulduzlar ahəngli, Ay ahənglidir.

Yaşadan ahəngdir dadlı həyatı,
Saxlayan ahəngdir bu kainatı,

1981

İNANC

Kim deyir ki bu varlıqda
Bir gün varam, bir gün yoxam,
Yox olsam da, yoxluğumla
Yağılara doğru oxam.

Dəysə də bir xətər mənə,
Dostlar ağı ötər mənə,
Öz ulusum yetər mənə,
Könlü geniş, gözü toxam.

Sevdim türkü qoşanları,
Yurd eşqiylə coşanları,
Dilimdə konuşanları
Səsləyərəm, sayı çoxam.

Heyranıyam qoçaqların,
Kərəm kimi qaçaqların,
Gərək bütün xıncaqların
Bağrını yandırıb yaxam.

Bax könlümün həvəsinə,
Diləyimin cilvəsinə,
Savalanın zirvəsinə
Sancağımı gərək taxam.

1977

GÖZƏLİM AY

Gözəlim Ay, bu gecə solğunsan,
Ürəyin yaşla dolub, dolğunsan.

Sarı bir gül kimi çox səksəkəli,
Duru bir göl kimi çox durğunsan.

Uyuyur yer, uyuyur göy, uyuyur,
Bir qədər sən də uyu, yorğunsan.

Ey Füzuli, günəşin Leylisi,
Şerə Məcnun kimi sən vurğunsan.

1985

ZÜLMƏT GECƏ

Bu gecə bir qərib qaranlıq var,
Bu qaranlıqda min toranlıq var.
Çox davam eyləməz bu səhnə, Rəfiq.
Görəcəksən ki, pərdə-pərdə üfüq
Açacaq, danyeri gülümsəyəcək,
Yer, səma bir şəfəqli don geyəcək.
Güləcək sevdiyin günəşli səhər,
Gələcək sevgilin, gedincə qəhər.
Zülmətin zilləti çəkildikcə,
Nur dolu bir sabah olur bu gecə.

1981

BİR QOCA KİŞİ VAR MƏNİM EVİMDƏ

Mənə mənim kimi pərişan gərək,
Bir qoca kişi var mənim evimdə,
Hər işə qarışar, soruşan gərək,
Onun nə işi var mənim evimdə?!

Söz açar doğmadan, özgədən mənə,
Ağarıb saqqalı, tökülüb dişi,
Güzgüyə baxaram, güzgüdən mənə
Baxar hirsli-hirsli o qoca kişi.

Bir qoca kişi var mənim evimdə,
Göz qoyar əvvəlki şəkillərimə,
Sanki keçmişi var mənim evimdə,
Qaranlıq gətirər fikirlərimə.

Ona güldən ağır söz demək olmur,
Heçnədən inciyər, heç nədən küsər.
Bir şey istəyəndə, döz demək olmur,
Üzünü turşudar, sözümü kəsər.

Adama yovuşmaz, niyə, bilmirəm,
Onun təşvişi var mənim evimdə.
Qohuma-qardaşa deyə bilmirəm,
Bir qoca kişi var mənim evimdə...

1990

İZMİR FESTİVALINDA

İzmir, dalğalanır əski bir saray,
Nerəyə baxırsam, gülür ulduz, Ay,
Aman, nə cənnətə uğradım bu yay,
Nə türkü söyləyir Müşərrəf Akay:
"Olmayıb kimsədən minnətim mənim,
Türkiyəm, Türkiyəm, cənnətim mənim!"

Türkiyə böyükdür, Türk böyük deyir,
Onun Atasıdır Atatürk deyir,
Ey gidi düşmənim, məndən ürk deyir!
Çünki bu yer üzü mənə Türk deyir!
Yaxar, yıxar səni nifrətim mənim,
Türkiyəm, Türkiyəm, cənnətim mənim!

Salon dəniz kimi yırğalanmada,
Qasırğalanmada, qovğalanmada,
Əllərdə çələnglər halqalanmada,
Umulmaz türkülər dalğalanmada,
Budur şerim mənim, sənətim mənim,
Türkiyəm, Türkiyəm, cənnətim mənim!

Saz, davul dillənir, qopuz dillənir,
Sanki mızraq dinir, topuz dillənir,
Türkə ömür verən oğuz dillənir,
Altıyız milyonluq nüfüz dillənir,
İçimdə şaxlanır, heyrətim mənim,
Türkiyəm, Türkiyəm, cənnətim mənim!

Siz ey yabançılar, yasaqlar, susun!
Bu yerdə yeri yox türlü casusun,
Bu yurd örnəyidir uca namusun,
Bu gerçək səsidir yurdun, ulusun,
Durur bu torpaqda qüdrətim mənim,
Türkiyəm, Türkiyəm, cənnətim mənim!

Coşur türkülərdə ürək sözlərim,
Sevinc yaşlarıyla dolub gözlərim,
Silinməz tarixdə qalan izlərim,
Ey könüldaşlarım, ey əzizlərim,
Ey vətənim mənim, millətim mənim,
Türkiyəm, Türkiyəm, cənnətim mənim!

İzmir, 1987

* * *

Dilimi doğma bilən bir ulusa can verərəm,
Dilimin türküsünə canımı qurban verərəm.

1980

* * *

Türkü məşuq edən insanlığa türkün dilidir,
Bu dili sevməmək olmaz. Atatürkün dilidir.

1989

ZÜMRÜD BOĞAZ

Dostum Camal Anadola

Zümrüd Boğazın seyrinə dalmaq nə gözəldir,
Türk cənnətinin zövqünü almaq nə gözəldir,
Duyduqlarını türküyə salmaq nə gözəldir,
Soydaşlar ilə baş-başa qalmaq nə gözəldir,
İstanbulun eşqiylə ucalmaq nə gözəldir!

Sevdalara, xülyalara sığmaz bu şeirlər,
Əfsanə gözəlliklərə bir ayna bu yerlər,
Keçməz bu ömür nəşəsi keçsin də əsrlər,
İstanbulun üstündə mələklərmi əsirlər,
Ceyran kimi qızlar sevər aslan kimi ərlər.

Burda daha yoxdur ağalar, yox qara qullar,
Yurdun öz ulusdaşları neylər qaravullar,
Sazlarla kamanlar qoşa, udlarla davullar,
Şənlənmədə yurdun bəzəyi qızlar, oğullar,
Gerçəkləşir artıq bu ulu yurdda nağıllar.

Coşduqca bu günlər, həyəcanlanmada dünlər,
Söylər ulu bir türkü bu toylar, bu düyünlər,
Sanki bütün aləm konuşan ruhumu dinlər:
"Canlanmada hala o cahanlar dolu ünlər,
Bir bayrağın üç qitəyə hökm etdiyi günlər!"

1987

BİR QƏLƏM DOSTUMLA ƏRUZ SÖHBƏTİ

Dedim: oxuyuram yazdıqlarını,
Eyni ölçülərdir, əlvanlıq hanı?

Dedi: nə əlvanlıq, bilə bilmədim!
Yeni biçimlərlə aran yox, dedim.

Dedim: danırmısan əruz vəznini?
Söylə, qanırmısan əruz vəznini?

Dedi: əruz vəzni bizimki deyil!
Dedim: Hamid necə, Füzuli neco

Başına qaynar su tökdüm, elə bil,
Sabirdən, Caviddən şeir deyincə!

Dedim: Nizaminin "Xəmsə"si əruz,
Divan şerimizin cüssəsi əruz.

Dedi: sözlərini yoza bilmirəm,
Demədi əruzda yaza bilmirom...

1966

SƏNƏT İNCİLƏRİ

Ey Zəka, Mahir ozanlarla dayandın üz-üzə,
Onların sözlərini qatdın ömür türkümüzə,
O gözəl incilərin üstünü kül örtmüş idi,
Əllərinlə o alovdan butalar çıxdı üzə.

1986

O TAYDA

Könlümdən hər gün keçir gözəl Təbrizim monim,
Gözəllikdə, sevgidə əzəl Təbrizim mənim!

Kim deyir ki atəşi ocağında keçibdir?
İki il çocuqluğum qucağında keçibdir.

Dostlarım deməsin ki, nə işim var o tayda,
Sabahım ona bağlı, keçmişim var o tayda.

1961

ŞƏHİD GƏLİNİ

Qəlbində sənin dursa da bir daş,
Qaplan südü içmişdi o yurddaş.
Sarsıtma bizi ağlamağınla,
Gözyaşlarını sil duvağınla!

Ölməz ulus uğrunda ölənlər,
Söylər səni yurdunda görənlər:
Ölməz şəhidin sevgisidir bu,
Yurd Məcnununun Leylisidir bu!

1963

BİLSƏM

Varlıqda yox olmuşdu mənim qayğılı dərdim,
Gözlərdə könül məşəlini yandıra bilsəm.
Yurddaşlarımın mutlusuyam mən də deyərdim,
Şerimdə ulus ruhunu canlandıra bilsəm.

1969

ŞERİN GÖZƏLLİYİ

Ozanlar yurda bağlı insanlar, ey dost,
Gözəl konuşmalıdır ozanlar, ey dost!
Konuşma sənətini anlamayanlar
Şerin gözəlliyindən nə anlar, ey dost?!

1963

ANA DİLİNDƏ

Yavruna öz dilini nədən öyrətməyirsən?
İnsan gərək odlana, gərək yana dilində!
Ana dilində dilin topuq çalır, görünür,
Anam layla çalmayıb sənə ana dilində!

1962

DƏLİSİYƏM

Ulu ozanların dəlisiyəm mən,
Tanburun, qopuzun ölüsüyəm mən,
Ayrılsam kamandan, sazdan, davuldan.
Bilənlər bilir ki, öləsiyəm mən.

1964

DUYMAZ

Kim türkiyə uymazsa sözün cəngini duymaz,
Gülşəndə açan qönçələrin rəngini duymaz,
Kim tanbura uymazsa yeri, əngini duymaz,
Şerin duzunu, ruhunu, ahəngini duymaz!

1965

NƏ GÖZƏL KONUŞUR TÜRK GÖZƏLLƏRİ

Gözəl Türkiyənin gözəl qızları,
Yer uldazlarıdır, yer ulduzları.

Gecələr Ay olar onlara heyran,
Gündüzlər onlardır günəşə seyran.

Duyğuları incə, sözləri incə,
Əməlləri incə, özləri incə.

Könüllər oxşayar dadlı dilləri,
Nə gözəl konuşur türk gözəlləri.

Gözəl İstanbulun gözəlliyindən,
Əbədiliyindən, əzəlliyindən.

İlhama gələrlər, şairlənərlər,
Göyə ucalarlar, yerə enərlər.

Ürəklər alovlu, üzlər mehriban,
Baxışlar mehriban, gözlər mehriban.

O gözlər andırar gözəl gölləri,
Nə gözəl konuşur türk gözəlləri.

Onların səsinə uymamaq olmaz,
Canlı inciləri duymamaq olmaz.

Türlü xarüqədir, türlü sehrdir,
Musiqi şəklində olan şeirdir.

Sədəflə süslənən qönçə dodaqlar,
İçində yaşamaq zövqünü saxlar.

Sanki sədalanır qönçə gülləri,
Nə gözəl konuşur türk gözəlləri.

Gəzdim başdanbaşa sevgili yurdu,
Hər yerdə bir gözəl önümdə durdu.

Görüb də sevməmək mümkün deyildir,
Onlar bər-bəzəyə düşgün deyildir.

Candan sevdikləri yurddur, ulusdur,
Ruhları tanburdur, sazdır, qopuzdur.

Bir türkü söyləyir könül telləri,
Nə gözəl konuşur türk gözəlləri.

Səslər dalğa-dalğa nəvalanmada,
İçimdə dərdlərim dəvalanmada.

Sanki insan deyil, mələk səsidir,
Dünyanın ən ülvi musiqisidir.

Bu nə möcüzədir, ah, nə bilim də,
Mənim ürəyimcə, mənim dilimdə.

Səslər gözəlliyə saysız əlləri,
Nə gözəl konuşur türk gözəlləri!..

Ankara, 1988

ŞAİRLƏR UÇUŞDADIR

Bəzən bir dağ başında
Dursalar da lal kimi,
Şairlər uçuşdadır
Daima, qartal kimi.

Məlalı sevinc kimi,
Sevinci məlal kimi,
Onların gözlərində
Hicran da vüsal kimi.

Onlar üçün dəyərli
Bir şey yox xəyal kimi,
Şairlər uçuşdadır
Daima qartal kimi.

1961

OLA BİLMƏZ

Yaxşılar pislər ilə yar ola bilməz, məncə,
Pis adam yaxşı sənətkar ola bilməz, məncə.

1966

SƏNSİZ DURAMIYORUM

Sənsən bu yer üzündə
Gecəm də, gündüzüm də,
Həyatımsan gözümdə,
Sənsiz duramıyorum.

Yollarım duman-duman,
Ağlaram zaman-zaman,
Durma, gəl, aman-aman,
Sənsiz duramıyorum.

Sənə qovuşmaq üçün
Ağlaram için-için,
Neçin duymazsan, neçin,
Sənsiz duramıyorum.

Gəl ki canbir olayım,
İki can bir olayım.
Sonacan bir olayım,
Sənsiz duramıyorum.

Axıb-gedər günlərim,
İnim-inim inlərim,
İstanbulu dinlərim,
Sənsiz duramıyorum.

Ürəyimdə simim var,
Keçilməz keçimim var,
Səndən başqa kimim var?
Sənsiz duramıyorum.

Sovuşmaz sənə meylim,
Məcnunam iştə, neylim?
Durmuş uzaqda Leylim,
Sənsiz duramıyorum.

Bunca ki qəm yiyorum,
Var səsimlə diyorum:
Mən səni istiyorum,
Sənsiz duramıyorum.

Bunca ki qəm yiyorum,
Var səsimlə diyorum:
Mən səni istiyorum,
Sənsiz duramıyorum.

Yaşam dolu meyimsən,
Röyada gerçəyimsən,
Sən mənim hər şeyimsən,
Sənsiz duramıyorum.

Eşqim aşıb daşıyor,
Göylərə yaxlaşıyor,
Demə mənsiz yaşıyor,
Sənsiz duramıyorum.

Bu çilə nasıl çilə?
Çilə, bülbülüm, çilə,
İlət o gözəl gülə;
Sənsiz duramıyorum.

Sənsizliyim yamandır,
Ürəyim bir kamandır,
Amanım ol, amandır,
Sənsiz duramıyorum.

Məni xəzan vuruyor,
Ömür bağçam quruyor,
İnan, qəlbim duruyor,
Sənsiz duramıyorum.

Könül bir imkan bula
Getməyə İstanbula,

Orda gülüstan bula,
Sənsiz duramıyorum.

Bana səsləmədənsə,
Susuyorsun, nədənsə,
Bilməzsən məni, mənsə
Sənsiz duramıyorum.

Susmaz nəvalı bir ney,
Aləmi inlətir hey,
Durumum öylə bir şey...
Sənsiz duramıyorum.

Yaralarım dərində,
Bağrımın üzərində,
Durur dünya yerində,
Sənsiz duramıyorum.

Sevgi tütər canımda,
Ürəyimdə, qanımda,
Sən olaydın yanımda,
Sənsiz duramıyorum.

Xəyalını oxşaram,
Ruhuna yaxlaşaram,
Sənsiz, səni yaşaram,
Sənsiz duramıyorum.

Suç, bunu bil ki, sən də,
Nə məndədir, nə səndə,
Sən məni bilməsən də,
Sənsiz duramıyorum.

Bir duraydıq üz-üzə,
Yakışaydı söz-sözə,
Söyləyəydim göz-gözə:
Sənsiz duramıyorum.

Nə gərəkdir gizləmək?
Nə deməkdir gözləmək?
Nə əməkdir özləmək?
Sənsiz duramıyorum.

Əllərini ver mənə,
Ver qəlbində yer mənə,
Üzünü göstər mənə,
Sənsiz duramıyorum.

Könlünü mənə qəsr et,
Ömrünü mənə həsr et,
Varlığım sənə həsrət,
Sənsiz duramıyorum.

Can səni ahu sanmış,
Gerçəkdən ahusanmış,
Demə ki, ah, usanmış,
Sənsiz duramıyorum.

Diləklərin nə kutlu,
Nə içli, nə umutlu,
Eylə bəni də mutlu,
Sənsiz duramıyorum.

Taleyim oyanırmı?
Şəfəqə boyanırmı?
Buna can dayanırmı?
Sənsiz duramıyorum.

Gözyaşım durulmuyor,
Könül səni bulmuyor,
Olmuyor, ah, olmuyor,
Sənsiz duramıyorum.

Gözlərində gözlərim,
Sözlərində sözlərim,

Səni nasıl özlərim,
Sənsiz duramıyorum.

Bir fidan boylu çamsan,
Gözəllikdə xocamsan,
Biricik tanrıcamsan,
Sənsiz duramıyorum!

Qoyma qalım tək məni,
Zülmət üzəcək məni,
İşıq kimi çək məni,
Sənsiz duramıyorum.

Əskilməsin şənliyin,
Şənliyin, esenliyin,
Mənliyimdir sənliyin,
Sənsiz duramıyorum.

Duramıyorum, canım,
Durmuyor həyəcanım.
Duymuş Azərbaycanım,
Sənsiz duramıyorum.

Rəfiqi səsləyəydin,
Onunla qəm yeyəydin,
Bir gün sən də deyəydin:
Sənsiz duramıyorum.

Bakı – İstanbul, 1987

ONSUZ GECƏ

Sonsuz gecələr cənnətə uğrardım onunla,
Dağlardakı sellər kimi çağlardım onunla.

Ulduzların altında dalardıq ulu zövqə,
Bir türkü ötərdik o səadət dolu zövqə.

Ay üzlü xəyalıyla parıldardı xəyalım,
Hicran, yenə hicran, yenə məhv oldu vüsalım.

Dəhşət gətirən son görüşüm son umudumdu,
Getdi, gedişiylə sönən ilhamım, odumdu.

Zülmət sarıb ətrafımı, sonsuz gecədir bu,
Onsuz yaşaya bilmirəm, onsuz gecədir bu.

1987

NƏ BAYRAMDIR BU BAYRAM

Nə bayramdır bu bayram,
Mənim könlüm açılmaz,
Şəfəq yox, nur saçılmaz,
Nə oldu keçmiş əyyam?!

Nə bayramdır bu bayram,
Nə bir türkü, nə bir saz,
Xəzan şəklində bir yaz,
Bu fəryada yox əncam.

Nə bayramdır bu bayram,
Uzaq Kürdən, Arazdan,
Onun yox fərqi yasdan,
Kim almış yasdan ilham?!

DİL BİRLİYİ

Nerədə türk var isə ordakı nisgil birdir,
Ayıranlar ayırıbdır ulusu, dil birdir,
Özgə dil yox, adımız türk, oba bir, el birdir,
Özgə bir fikrə düşən özgə ilə əlbirdir.

1987

HƏR SABAH

Hər sabah artır yaşı yurddaşların,
Türkü deyən sevgili qurddaşların.
Bağrına min lərzə düşür hər sabah
Beyni fəsadla dolu yoldaşların.

1987

QORXMAZ

Ölümdən qorxmayanlar
Zülümdən qorxmaz, oğlum!
Zülümdən qorxmayanlar
Ölümdən qorxmaz, oğlum!

1987

HƏR YERDƏ

Yaxşıya yaxşı, pisə pis demişəm hər yerdə,
İblisin oğluna iblis demişəm hər yerdə.
Mələk insanları gördükdə qanadlanmadayam,
Öldü var, döndü yox andımda, inanlanmadayam!

1987

OCAĞIM MƏNİM

Haraya yollansam, haraya getsəm,
Könlümü, canımı nurla isitsəm,
Dostlardan çeşidli salıq eşitsəm.

Uzaqdan gəlsə də sorağım mənim,
Hər səfər olsa da bir ülfət kimi,
Yaxır varlığımı bir həsrət kimi
Doğma evim mənim, ocağım mənim!

Mən öz ocağıma candan bağlıyam,
Burda duyğuları çilçırağlıyam,
Onsuz çətin coşam, çətin çağlayam,
Buradır ən uca oylağım mənim.
Onu dəyişmərəm bu yer üzünə,
Məni şəfqətiylə çəkir özünə
Doğma evim mənim, ocağım mənim.

Bu ocaq atamdır mənim, anamdır,
Alovu ilhamdır, nuru inamdır,
Sərvəti dəyərli kitabxanamdır,
Odur tükənməyən marağım mənim.
Qızıldan bahalı gövhərlərim var,
Çeşidli dillərdə əsərlərim var,
Doğma evim mənim, ocağım mənim.

Burdadır küsməyim, barışmağım da.
Alovlanmağım da, alışmağım da.
İstirahətim də, çalışmağım da,
Burda yazı masam, yatağım mənim.
Burda bir səfalı ömür sürmüşəm,
Nələr düşünmüşəm, nələr görmüşəm,
Doğma evim mənim, ocağım mənim!

Bu ev aynasıdır Cəfər Xəndanın.
Canlı muzeyidir şanlı vicdanın,
Eyvanım eynidir ağaran danın,
Günəşlə doludur otağım mənim.
Qönçələr açılan zərəfşanıdır,
Bəxtimin saçılan kəhkəşanıdır
Doğma evim mənim, ocağım mənim!

Mən öz ocağıma candan mailəm,
Bu ocaq sevgilim, yavrum, ailəm,
Mənimlə ömr edir mənim Nailəm,
Gülümsər dostlara çırağım mənim.
Aydanım, Xəndanım ürəyim, canım,
Can gülüstanımdır, can gülüstanım
Doğma evim mənim, ocağım mənim!

Bu canım ocaqda ucalıb başım,
Buraya bağlıdır neçə sirdaşım,
Dostum, könüldaşım, yarım, yoldaşım,
Onlardır pozulmaz novrağım mənim.
Dostlar müqəddəsdir, dostlar ülvidir,
Dostlar ocağıdır, dostlar evidir
Doğma evim mənim, ocağım mənim.

Fikirli günümdə, qəmli günümdə
Xəyala qərq olur Xəzər önümdə,
Dar gündə ilhamım hər şeydən ümdə,
Bəyaz buludlardır varağım mənim.
Sular qələmimlə çağlayıb daşar,
Anamın əliylə ruhumu oxşar
Doğma evim mənim, ocağım mənim.

Ulusa bağlıyam mən bu həyatda,
Dünyada görmüşəm yas da, büsat da,
Yaşıl həyətim var üçüncü qatda,
Burdadır aranım, yaylağım mənim.
Bütün fəsillərdə bağça-bağlıdır,
Ulusa bağlıdır, yurda bağlıdır
Doğma evim mənim, ocağım mənim!

Bu ev ocağıdır Dədə Qorqudun,
Davulun, tanburun, qopuzun, udun,
Könlümü kamanla, sazla ovudun,

Onlara açıqdır qucağım mənim.
Ömrümə yasaqdır bizə ögeylər,
Gecəli gündüzlü bir türkü söylər
Doğma evim mənim, ocağım mənim!

1987

MİKAYIL MÜŞFİQ ÜÇÜN

29 il yaşadın,
Cavan şairlər yaşıdın,
Söylə, kim unudar səni?!
Gələcəkdə Koroğlular,
Qurd ürəkli ər oğlular
Dünyaya tanıdar səni!

Keçir dövran, keçir zaman,
Aman Allah, aman-aman,
29 il yaşadın.
Bizim soylu şairlərin,
Cavidlərin, Sabirlərin
Adlarına soydaş adın!

29 il yaşadın,
Yurdu, ulusu oxşadın,
Adın uca, başın uca,
Ölümdən keçər dahilər,
Sənin kimi ilahilər
Duracaq dünya durunca!

Ömrün bitdi ad günündə,
Daşnaklar durdu önündə,
29 il yaşadın.
Göylərdən yerə enməyən,
Odlar içində sönməyən
Bir səməndərə oxşadın!

29 il yaşadın,
Yarım il də dərd daşıdın.
Türklüyə aşiqim mənim,
Daşnaklar öldürdü səni,
Alçaqlar öldürdü səni,
Türk oğlu Müşfiqim mənim!

Ulusunun düşmanları,
Nadanların nadanları
Gözündə qoydu kamını.
İnan mənə, yurddaşların,
Qandaşların, qurddaşların
Alacaq intiqamını!..

1989

GƏLƏCƏKDAŞLARIMIZ

YENİ DEYİM

Yeni deyim yolu yeni biçimdir,
Yeni türkülərdə göstəricimdir.

1987

DUYĞULARIMLA

Yurduma bağlandı bütün varlığım,
Mutluluğum – xalqıma oxşarlığım.

Ən ulu qanunum onun əmridir,
Ömrüm ulusdaşlarımın ömrüdür.

Qüdrətim, aləm bilir, odlardadır,
Odlu qopuzlardadır, udlardadır.

Eşqimi odlarla yoğumuş anam,
Ruhumu olmazmı səməndər sanam.

Mən ulus uğrunda yanan bir canam,
Duyğularımla can Azərbaycanam!

1987